*AMEA Nəsimi adına Dilçilik İnstitutu,*
*Dilçilik araşdırmaları, 2024, №1* ISSN: 2664-5432
*Səhifə: 91-97*
*http://doi.org/10.59849/2664-5432.2024.1.91*

**Könül HƏBİBOVA***

# PRESUPPOZİSİYANIN NİTQİ TƏSİR FUNKSİYASI

## XÜLASƏ

Bu məqalə nitqi ünsiyyətdə presuppozisiyanın rolunu və onun həmsöhbətlər tərəfindən məlumatı qavramasına təsirini araşdırır. Presuppozisiya effektiv nitqi təsirin qurulmasında əsas element kimi nəzərdə tutulan və ya dolayısı ilə fərz edilən məlumatdır. Məqalə çərçivəsində aparılmış elmi araşdırmada presuppozisiyaların formalaşması və istifadə mexanizmlərini, onların müxtəlif kommunikativ kontekstlərdə funksiyalarını, ifadələrin şərhinə təsiri təhlil edilir. Məqalədə gündəlik və peşəkar nitqdən nümunələr araşdırılır, presuppozisiyaların auditoriyanın altşüurunu necə istiqamətləndirə və dəyişdirə biləcəyi, konkret ünsiyyət məqsədlərinə nail olmağı asanlaşdırması şərh edilir. Fərqli diskurslarda presuppozisiyaların manipulyativ tətbiqinə xüsusi diqqət yetirilir.

**Açar sözlər:** *presuppozisiya, kommunikativ akt, manipulyasiya, kontekst, nitq.*

Müasir dilçilik ünsiyyətin müxtəlif aspektlərinin öyrənilməsinə böyük diqqət yetirir, effektli nitqi təsirin altında yatan mexanizmləri açmağa çalışır. Belə mexanizmlərdən biri deyimdə yerləşdirilmiş nəzərdə tutulan və ya dolayısı ilə fərz edilən məlumatı ehtiva edən presuppozisiyalardır. Presuppozisiya nitq aktlarının qurulmasında və qavranılmasında mühüm rol oynayır, mesajların başa düşülməsinə və şərhinə əhəmiyyətli təsir göstərir.

Presuppozisiya ünsiyyətin bütün səviyyələrinə nüfuz edir — sadə gündəlik söhbətlərdən mürəkkəb peşəkar diskurslara qədər olan kommunikativ akt və mətnləri presuppozisiyasız təsəvvür etmək mümkün deyil. Bu dil hadisəsi natiqə ifadə vasitələrinə qənaət etməyə imkan verir, onları açıq şəkildə səsləndirməyə ehtiyac olmadan əlavə mənaları çatdırılmasına, ifadəsinə hesablanır. Eyni zamanda, dinləyici tərəfindən ilkin məlumatın (presuppozisiyanın) düzgün başa düşülməsi və şərh edilməsi mesajın adekvat qavranılması üçün çox vacibdir.

---

* AMEA Nəsimi adına Dilçilik İnstitutu, Kompüter dilçiliyi şöbəsi, filologiya üzrə fəlsəfə doktoru, dosent. Email:

Bu elmi araşdırmanın əsas məqsədi presuppozisiyaların nitqi təsir funksiyasını, manipulyativ təbiətini, müxtəlif kommunikativ kontekstlərdə rolunu və formalaşma mexanizmlərini təhlil etməkdir.

Presupposiziyanın nitqi təsir funksiyasının araşdırılması dilçilik və praqmatika sahəsi üçün çox aktual və əhəmiyyətli məsələlərdən hesab edilir. Presuppozisiyaların 2 tipdə olduğunu iddia edən N.İ.Kluşina onun müəllif və diskursiv olmaq üzrə fərqləndirir. Müəllif presuppozisiyalarının bədii mətnə, diskursiv olanların isə ünuversal səciyyəli olduğunu qeyd edərək, yazır ki, "publisist diskursa mənsub olan presuppozisiyalar güclü nitqi təsir potensialına malikdir, çünki kütləvi şüura ideoloji stereotiplərin yeridilməsinə kömək edir" [Клушина: 2014, s.477].

Presuppozisiyalar neyrolinqvistik proqramlaşdırma ilə bağlı tədqiqat aparan araşdırmaçıların da diqqətini çəkir. Bu məqamda presuppozisiya sırf psixoloji hadisə kimi dəyərləndirilir və qeyd edilir ki, neyrolinqvistik proqramlaşdırma zamanı presuppozisiya davranış xəritəsinə bənzəyir. Məsələyə bu yöndən yanaşan L.Abramova qeyd edir ki, "neyrolinqvistik proqramlaşdırmada xəritə rolunu oynayan presuppozisiya müəyyən bir təsir sahəsini deyil, ünsiyyətin ümunu məzmunundan doğan məna və bu mənaya insanın reaksiyasını ifadə edir, daxili proqramlaşdırma kodlarının mahiyyətini müəyyən edir" [Абрамова: 2023, s.96]. Deməli, dünya haqqında bilikləri (xəritələri) dərk etmək və dil (məna) vasitəsilə effektiv təsir yaratmaq ünsiyyət bacarıqlarının və başqaları ilə qarşılıqlı əlaqənin qurulması və inkişafı üçün əsasdır.

Koqnitiv-praqmatik yanaşma çərçivəsində presuppozisiyaların növlərini və onların altmətnin qavranılması prosesində rolunu araşdıran S.S.Anufrieva presuppozisiyaların mənasını, onların mətnin qavranılmasına və dərk edilməsinə təsirindən, həm açıq, həm də gizli məzmuna malik olmasından bəhs edir. Müəllif praqmatik planda presuppozisiyanı mətnin qavranılması və dərk edilməsi prosesində əsas element kimi qiymətləndirir və qeyd edir ki, presuppozisiyalar kommunikativ aktın tərkib hissəsidir və mətnin təfsirinə əhəmiyyətli dərəcədə təsir göstərə bilər [Ануфриева: 2002].

Bütün qeyd edilənləri nəzərə alaraq, presuppozisiyaların nitqi təsir funskiyasının manupilyativ strategiyalar çərçivəsində araşdırlması mövzunun aktuallığını bir daha təsdiqləmiş olur.

**Tədqiqatın nəzəri əsası.** Nitqi manipulyasiya kütləvi şüura təsir etmək üçün bir çox üsul və vasitələrdən istifadə edir. Belə üsullardan biri də presuppozisiyadır. Presuppozisiya danışanın təqdim etdiyi müqqədimə, giriş səciyyəli bilik və ya məlumatdır. Bu termin dilçiliyə məntiq elmindən daxil edilmiş və daha sonra dilçilərin müxtəlif yanaşmalar əsasında tədqiqat obyektinə çevrilmişdir. Məsələn, presuppozisiyaya praqmatik baxımdan yanaşan R.S.Stolneyker onu danışan tərəfindən ünsiyyət iştirakçıları üçün seçilmiş əsas (ümumi bilik) kimi dəyərləndirir [Stalnaker: 1978, s.321]. L.A.Naumova qeyd edir ki, "natiq konkret obyekt (hadisə) haqqında şüurlu və ya şüursuz bəyanat verməklə bu obyekt (fenomen)

haqqında artıq mövcud olan bəzi bilikləri nümayiş etdirir. Hər bir mülahizə müəyyən bir mühakimə yürütməyə imkan verir və onu nəzərdə tutur" [Наумова: 1998, s.237].

Presuppozisiya haqqında dilçilik tədqiqatlarında fərqli mühakimələr yürüdülməsinə baxmayaraq, o bütün hallarda ilkin məlumat, baza biliyi mənası ətrafında izah edilir. Bu məqamla bağlı qeyd etmək yerinə düşər ki, "presuppozisiya" anlayışını dilçiliyə ilk dəfə gətirən alman alimi H.Frege onu "fon bilgisi" termini ilə əlaqələndirirdi: "fon bilikləri həm mətni yaradan, həm də mətnin aid olduğu hər kəsin artıq məlumatlı olduğu biliklər məcmusudur" [Гюббенет: 1991, s.7].

Azərbaycan dilçiliyində sadə cümlə strukturu əsasında presuppozitiv əlaqələri araşdıran M.Ə.Hacıyeva presuppozisiyanı kommunikativ-praqmatik aspektdən illokutiv məqsədi anlamaq üçün bələdçi rolunu oynadığını qeyd edir [Hacıyeva: 2021, s.6]. Müəllif qeyd edir ki, "hər bir ifadənin presuppozisiyası eksplisit tərzdə verilmiş ifadədə imlisit məzmununun anlaşılmasına köməklik göstərir. Bu baxımından da o, danışıq aktı nəzəriyyəsi çərçivəsində semantik-praqmatik məfhum kimi çıxış edir. Mətnin təhlilinin həyata keçirilməsində ən aktual presuppozisiya praqmatik presuppozisiyadır" [Hacıyeva: 2021, s.73].

Nitq aktı daxilində əks olunan və konteksti genişləndirən mətnin fikir strukturunun təhlili və dərk edilməsində presuppozisiyaların mühüm rolu vardır. Nitq aktındakı presuppozisiyaları başa düşmək və təhlil etmək ünsiyyətin məqsəd və məzmununu daha dərindən dərk etmək baxımından vacibdir.

**Tədqiqatın əsas hissəsi.** Kommunikativ aktın resipientin fikrini, dünyagörüşünü və münasibətini dəyişdirmək üçün məqsədyönlü fəaliyyət olmaqla praqmalinqvistik prizmadan nəzərdən keçirilməsi müasir elmin nitqi təsirin müxtəlif formalarının öyrənilməsinə marağına artmasına gətirib çıxarır. Bu planda müasir dilçilik tədqiqatlarında daha tez-tez manipulyasiya, presuppozisiya, suqqestesiya kimi nitq hadisələrinin tədqiq edilməsi müşahidə edilir. Bu nitqi təsir formalarının əsas məqsədi dinləyənən postkommunikativ davranışını dəyişdirmək, ona yeni ideyaları təlqin etmək, təklif olunan məlumat və ya biliklə razılığa gəlməyini təmin etməkdir. Bir sözlə kommunikativ aktda hər bir nitqi təsir təlqinetmə funksiyası yerinə yetirir. Bəzi tədqiqatçılar dil və ya nitqi təsiri "dilin apelyativ funsksiyası" da adlandırırlar. Belə tədqiqatçılardan olan M.V.Larionova qeyd edir ki, "Dilin təsir (apellyativ) funksiyası, insanın dildən öz məqsədləri üçün istifadə etməsi nəticəsində şifahi və şifahi olmayan manipulyasiya taktikalarının bütün spektrini əhatə edir. Bu təsir resipientlərə gizli təsir göstərmək üçün dilin idarəetmə imkanlarını aktivləşdirməyə yönəlmişdir" [Ларионова: 2013, s.220].

Məsələn, gündəlik məişət həyatından sıradan bir dialoqa nəzər yetirsək, bunu daha aydın şəkildə izah edə bilərik: "Bax, oğlum, o adam sən yaşda olanda dərslərini oxumayıb, "iki" aldığı üçün indi fəhləlik edir". Bu cümlədə ehtimal olunan məlumat məktəbdə tədris olunan fənləri yaxşı oxuyub mənimsəməkdir. Belə olmadığı təqdirdə savadsızlıq insanın gələcək həyatında ağır sınaqlarla üz-üzə

qalmasına, pis dolanışığının olmasına səbəb ola bilər. Presuppozisiyaya həm də sual cümlələrində rast gəlinir. Məsələn, reklam mətnlərinin birində qurulan dialoq bu şəkildə başlayır: "Saçların nə yaman parlaq və həcmlidir?" Çox vaxt qoyulan məsələyə, problemə giriş vermək məəqsədi ilə sual cümlələrində rast gəlinir: "Niyə bizim kosmetikamız ölkədə ən yaxşısıdır?". Burada ilkin nəzərə çatdırılan məlumat saçların gözəl görünməsidir. Daha sonra isə bu gözəlliyin səbəbi olan məhsul haqqında məlumat verilir və bununla da manipulyativ taktika baş tutmuş hesab edilir. Beləliklə, presuppozisiya adresatın fikrini dəyişdirmək üçün manipulyasiya texnikasının bir hissəsi kimi istifadə edilir.

V.V.Krasnıx presuppozisiyanı "kommunikantların fərdi idrak məkanlarının (bilik fondlarının), o cümlədən kommunikantların ümumi situasiya haqqında təsəvvürlərinin kəsişmə zonası" kimi müəyyən edir [Красных: 2001, s.181].

Manipulyasiya məqsədi ilə öncədən düşünülüb hazırlanmış mətndə müşahidə edilən presuppozisiya effektiv nitqi təsir üsulu kimi istifadə olunur. Presuppozisiya şüuraltı səviyyədə təsir edir, nə sübut, nə də təkzib tələb etmir və buna görə də oxucunun və ya dinləyicinin analitik təfəkkürünü "bloklayır" və aksioma kimi qəbul edilir. Nitq aktında presuppozisiya ünsiyyətin baş tutması üçün təbii qəbul edilməli olan bir ifadə kimi maskalanır, yəni, mətn oxucu və ya dinləyici tərəfindən başa düşülür və mənimsənilir. Mətndəki təqdimatın təbiiliyi və presuppozitiv ismarıcın "pərdə arxasında" qalması onların manipulyativliyini təmin etmiş olur. Ünsiyyət aktında manipulyativ funksiya yerinə yetirən presuppozisiya özündə gizli komandalar ehtiva edən xüsusi linqvistik konstruksiya kimi təqdim olunur. Presuppozisiyaların implisit təbiətə malik olub-olmaması haqqında mühakimə yürüdən .... qeyd edir ki, "presuppozisiya söyləmin implisit məzmununa bərabər tutula bilməz, çünki presuppozisiyalar məlumat verilən informasiya statusuna malik deyildir, onlar eksplisit semantik komponent üçün bazis kimi xidmət edir və kompleks şəkildə isə implisit semantik komponentin əsasını təşkil edir" [Qurbanova: 2023, s.49].

Presuppozitiv elementdən istifadə edən manipulyativ texnika qarşı tərəfin, auditoriyanın və ya həmsöhbətin şəxsin fikrini, inancını, baxışını, münasibətini, məqsədini və s. dəyişdirmək üçün şüuruna təsir etmək məqsədi ilə istifadə olunan üsullar toplusuna daxildir.

E.İ.Sur presupposiziyanın manipulyativ təbiəti haqqında təhlillər apararkən qeyd edir ki, bir söyləmdə, cümlədə bir neçə presuppozisiyadan istifadə etmək mümkündür. Məsələn, «Gələcək əməkdaşlığımıza razılığınızı aldıqdan sonra biz şirkətin sabit inkişafına, işçilərinizin hüquqlarının qorunmasına və mənfəətin ikiqat artmasına zəmanət verə bilərik, lakin unutmayın ki, əgər mənfəət gəlirini biz iki dəfədən də yüksəyə qaldıra bilsək, o zaman şirkətə şərik olmaq iddiasında olacağıq". Bu nümunəylə bağlı olaraq E.İ.Sur qeyd edir ki, burada iki presuppozitiv fakt fakt nəzərdə tutulur: 1) danışan tərəf dinləyən tərəfə müəyyən gəlir vəd etməklə onu əməkdaşlığa cəlb edir; 2) bu əməkdaşlıq növündən daha çox fayda əldə etmək mümkün olduğu halda isə şirkətin mülkiyyətçisi olmaq şansı

qazanmasına diqqət yetirilir. Tərəflərdən biri üçün lazımi qərarın qəbul edilməsinin lehinə olan arqumentlər aydın və konkret olmalı, adresatı razılaşmaq istəyinə sövq etməli, məsələnin bütün müsbət və mənfi tərəflərini rasional başa düşmək imkanını aradan qaldırmalıdır. Bu, adresatın şüurunun uğurlu manipulyasiyası üçün əsasdır [Сур: 2012, s.192].

Buradan da görünür ki, presuppozisiya hesabına öncədən hazırlanmış manipulyativ mətnlərin strukturu özündə mesajın qavranılmasının şərh prosesinin uğurla həyata keçirilməsinə kömək edən linqvistik göstəriciləri ehtiva edir. "Ünsiyyətin düzgün qurulub, lazımi şəkildə davam etdirilməsi üçün linqvistik və ekstralinqvistik komponentlərin aparıcı hissəsinə presuppozitiv əlaqəni də mütləq əlavə etmək gərəkdir. Bunun oynadığı aparıcı rolun sayəsində tərəflər arasında tam anlaşılıqlı bir ünsiyyət baş tuta bilər. Presuppozisiyalar hər bir danışıq aktının eksplisit yox, implisit tərəfinə aid edilir" [Hacıyeva: 2021, s.76].

Presuppozisiyaya həm linqvistik, həm də ekstralinqvistik amillərdən asılı olan ifadənin müvafiq tətbiqi və onun adekvat təfsirinin mümkünlüyü daxildir. Bu baxımdan ekstralinqvistik göstəricilərlə əlaqələndirilən nitqi təsirin linqvistik vasitələri kommunikativ situasiyanın konkret şəraiti ilə bağlı qrammatik və leksik-semantik səviyyələrinə aid ola bilər. Şəxslərarası dialoqda və ya kütləvi auditoriya qarşısındakı çıxışda dinləyicilərin şüuruna təsir edən linqvistik vasitələrin müxtəlifliyi onların hər birinin manipulyaiv imkanlarının öyrənilməsi zərurəti yaradır. Təqdim edilən nümunədən də bəlli olur ki, manipulyativ təsirin əsas linqvistik vasitələrindən biri presuppozisiyadır. "... kommunikasiya aktının formalaşmasında presuppozisiya mühüm rol oynayır. Söyləmin semantik strukturunda presuppozisiya mühüm yer tutur, çünki o, söyləmin eksplisit semantik təqdimatının əsasını təmsil edir və bununla da söyləmin növbəti implisit semantik komponenti üçün bazanı təşkil edir" [Qurbanova: 2023, s.48]. Bu fikri ilə A.Qurbanova presuppozisiyanın yalnız dilin bir hissəsi kimi deyil, həm də kommunikativ akta təsir etmək və onu dərk etmək vasitəsi kimi əhəmiyyətli vasitə olmasına diqqət yetirir. Bu, ünsiyyət və informasiyanın dərk edilməsi prosesinin mürəkkəbliyini və çoxqatlı xarakterini vurğulayır.

Düzgün sözləri seçməklə biz yalnız reallığın görünüşünü deyil, həm də ona olan münasibəti modelləşdirə bilərik. Bu baxımdan ortaya atılan fikir üçün baza rolunu oynayan, məlumatın təqdimatını daha da təsirli və düşündürücü edən presupozisiyalardır. Presuppozisiya danışan və dinləyici arasında ümumi biliyin ortaq elementini təmsil edir. "Presuppozisiya kommunikasiyanın uğurunu müəyyənləşdirən amildir. Bu amilin əhəmiyyəti isə danışığın anlaşıqlı olması, adresantın öz niyyətini reallaşdıra bilməli və ünsiyyət prosesində həmsöhbətinin biliyini nəzərə almalı olmasından ibarətdir" [Qurbanova: 2023, s.48]. Deməli, presuppozisiyalar, danışan və dinləyici arasında ümumi biliyin ortaq elementlərini təmsil edir və ünsiyyətin uğurlu olmasını təmin edən amildir. Onlar danışığın anlaşıqlı olmasını, yəni adresantın (nitq sahibinin) öz niyyətini reallaşdıra bilməsini və ünsiyyət prosesində həmsöhbətinin (dinləyicinin) biliyini nəzərə almasını təmin

edir. Bu, presuppozisiyanın ünsiyyətdə əsas rolunu vurğulayır və onun kommunikasiya prosesindəki əhəmiyyətini göstərir.

Müasir dilçilik tədqiqatlarında manipulyasiya, presuppozisiya və suqqestesiya kimi nitq hadisələrinin əhəmiyyətinə diqqət yetirilir. Bu təsir formaları dinləyicinin postkommunikativ davranışını dəyişdirmək, yeni ideyaları təlqin etmək və məlumatla razılaşmasını təmin etmək məqsədi daşıyır. Dilin təsir funksiyası, insanın dildən öz məqsədləri üçün istifadə etməsi nəticəsində manipulyasiya taktikalarının geniş spektrini əhatə edir. Bu təsir resipientlərə gizli təsir göstərmək üçün dilin idarəetmə imkanlarını aktivləşdirməyə yönəldilir.

Presuppozisiya, manipulyativ texnika kimi dinləyicinin fikrini dəyişdirmək üçün istifadə olunur. Presuppozisiya məlumatın təlqin edilməsi üçün effektiv üsuldur, çünki sübut və təkzib tələb etmir və resipientin analitik təfəkkürünü bloklayır. Presuppozisiya, kommunikantların fərdi idrak məkanlarının kəsişmə zonası olaraq müəyyən edilir və bu kəsişmə zonası ünsiyyətin uğurlu olmasına kömək edir. Presuppozisiya implisit səciyyəlidir, altışüura ünvanlıdır.

Manipulyativ mətnlər presuppozisiyadan istifadə edərək mesajın qavranılmasını asanlaşdıran linqvistik göstəriciləri ehtiva edir. Bu üsul dinləyicinin şüuruna təsir edir və mesajın təbii qəbul edilməsini təmin edir. Presuppozisiya nitq təsirinin effektivliyini artırmaq üçün mühüm rol oynayır. Manipulyativ təsirin uğurla həyata keçirilməsi dilin və ekstralinqvistik komponentlərin düzgün istifadəsi ilə mümkündür.

## ƏDƏBIYYAT

1. Hacıyeva M.Ə. Sadə cümlələrdə propozitiv və presuppozitiv əlaqələrin praqmatikası. 2021. 136 s.

2. Qurbanova A. Söyləmlərin üst qatda semantik əlamətləri // QƏDİM DİYAR Beynəlxalq onlayn elmi jurnal. 2023. Cild: 5 Sayı: 4. S. 46-53.

3. Stalnaker R. Assertion // Syntax and Semantics. 1978. №. 9. P. 315-332.

4. Абрамова Л.Ю. Пресуппозиции в нейролингвичтичеком программировании // Znanstvena Misel. 2023. № 80 (80). С. 96-97. DOI 10.5281/zenodo.8181346.

5. Ануфриева С.С. Виды пресуппозиций и их роль в процессе восприятия подтекста // Веснік Віцебскага дзяржаўнага універсітэта. 2002. № 4 (26). С. 55-59.

6. Гюббенет И.В. Основы филологической интерпретации литературно-художественного текста. Москва. 1991. 250 с.

7. Клушина Н.И. Пресуппозиция // Эффективное речевое общение (базовые компетенции): Словарь-справочник. Электронное издание / Сибирский федеральный университет; [Под редакцией А.П. Сковородникова. – 2-е издание, переработанное и дополненное]. Красноярск: Сибирский федеральный университет. 2014. С. 477-478.

8. Красных В.В. Основы психолингвистики и теория коммуникации. Москва. 2001. 271 с.

9. Ларионова М.В. Пресуппозиция как способ манипулятивного воздействия (на примере испанского газетно-публицистического дискурса) // Вестник МГИМО Университета. 2013. № 2 (29). С. 220-224.

10. Наумова Л.А. Пресуппозиция в логике и лингвистике // Философия: в поисках онтологии. Самара, 1998. № 5. С. 236 - 255.

11. Сур Е.И. Манипулятивная функция пресуппозиции // Актуальные проблемы гуманитарных и естественных наук. 2012. № 6. С. 191-194.

## ФУНКЦИЯ РЕЧЕВОГО ВОЗДЕЙСТВИЯ ПРЕСУПОЗИЦИИ

**Аннотация.** Данная статья исследует роль пресуппозиции в коммуникации и её влияние на восприятие информации собеседниками. Пресуппозиция, подразумеваемая или неявно предполагаемая информация, является ключевым элементом в построении эффективного речевого воздействия. Автор анализирует механизмы формирования и использования пресуппозиций, их функции в различных коммуникативных контекстах, а также их влияние на интерпретацию высказываний. В статье рассматриваются примеры из повседневной и профессиональной речи, демонстрирующие, как пресуппозиции могут направлять и изменять восприятие аудитории, способствуя достижению определённых целей в коммуникации. Особое внимание уделяется стратегическому применению пресуппозиций в разных дискурсах.

**Ключевые слова:** *пресуппозиция, коммуникативный акт, манипуляция, контекст, речь.*

## SPEECH EFFECT FUNCTION OF PRESUPPOSITION

### ABSTRACT

This article investigates the role of presupposition in communication and its impact on the perception of information by interlocutors. Presupposition, implied or implicitly assumed information, is a key element in constructing effective speech influence. The author analyzes the mechanisms of forming and using presuppositions, their functions in various communicative contexts, and their influence on the interpretation of statements. The article examines examples from everyday and professional speech, demonstrating how presuppositions can guide and alter audience perception, facilitating the achievement of specific communication goals. Special attention is given to the strategic application of presuppositions in different discourses.

**Keywords:** *presupposition, communicative act, manipulation, context, speech.*